***Taleh Vasif oğlu Əliyev***
*AMEA Arxeologiya və Etnoqrafiya*
*İnstitutunun elmi işçisi*
taleh.ali@mail.ru

# ORTA ƏSR MÜDAFİƏ İSTEHKAMLARI HAQQINDA
## (Şəki, Oğuz, Qəbələ abidələri əsasında)

**Açar sözlər:** Albaniya, Şirvanşahlar, qala, tarix, arxeologiya

**Ключевые слова:** Албания, Ширваншахы, крепость, история, археология

**Key words:** Albania, Shirwanshahs, castle, history, archaeology

Yaşayış yerlərinin yaxınlığında, xüsusən də əlverişli-strateji mövqelərdə həm ilk orta əsrlər, həm də sonrakı dövrə aid müdafiə istehkamları bu günə qədər qalmaqdadır. Müdafiə istehkamlarının yerləşdiyi əraziləri xəritədə nəzərdən keçirdikdə həm ilk orta əsr alban dövrü, həm də Şirvanşahlar dövründə gözlənilməz düşmən hücumlarına qarşı mühüm strateji mövqelərdə yerləşdiyini görürük.

**Oğuz qalası.** Abidə Oğuz çayının sağ sahilində Qalasisik düzündə yerləşir. Ərazi Oğuz rayon mərkəzindən 1,5 km şərqdədir. Orada ilk tədqiqatlar 1965-ci ildə qalanın 1 N-li bürcünün şərq tərəfindəki dağılmış divar qalığının qarşısında aparılmışdır (1, 16). Qalanın bu bürcü 10x10 m ölçüdə kvadrat formalıdır. Abidənin darvaza yeri iki bürc arasında, eni 6 m olan sahədədir. 1 N-li bürcün içərisində düzbucaq formalı, 3 x 3 m ölçülərə malik bir otaq aşkar edilmişdir. Düzbucaq formada inşa edilmiş bürcün hər bir tərəfinin eni 10 m, divarlarının qalınlığı 3,5 m, qorunmuş hissəsinin hündürlüyü 2 m-dir. 2 №li bürcün qorunmuş hissəsinin hündürlüyü təqribən 3,5 m-dir. Cənub divarı düz hörülmüşdür. Buna əsasən 2 N-li bürcün də düzbucaq formasında inşa edildiyini söyləmək olar. İnşaat materialı kimi puç daş və əhəng məhlulundan istifadə olunmuşdur. Puç daşların ölçüləri 40 x 24 x 18 sm, 40 x 22 x 26 sm-dir. Bürcün şimal tərəfində 35 sm-lik mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir (1, 17; 2, 2-3). Ərazidə yerləşən müdafiə istehkamlarında yaşayış yerlərinə nisbətən mədəni təbəqənin qalınlığı az olmuşdur. Bu da normal haldır. Oğuz qalasından arxeoloji qazıntı zamanı az miqdarda məişətdə istifadə olunmuş gil qab hissələri əldə olunmuşdur.

Arxeoloji qazıntı işləri nəticəsində burada iki mədəni təbəqə üzə çıxarılmışdır. Alt qat bünövrədən aşağıda üzə çıxmışdır ki, bu da III-IV əsrlərə aiddir (2, 4). Maraqlıdır ki, bu saxsı məmulatının heç biri qala ilə həmdövr deyil. Bu isə qalanın III – V əsrlərə aid mədəni təbəqənin yerləşdiyi yaşayış yerinin üzərində tikildiyini söyləməyə imkan verir.

Üst mədəni təbəqədən tapılmış saxsı qab parçaları və bürclərin düzbucaq forması Oğuz qalasının V – VII əsrlərə aid olduğunu söyləməyə əsas verir (3, 148-149; 4, 145; 5). Qalada ilk orta əsrlərdə mövcud olmuş həyatın ərəb hücumları zamanı kəsildiyi qənaətindəyik.

**Tərkəş qalası.** Oğuz rayonunun Şərq hissəsində, Oğuz – Bakı yolunun və eyniadlı kəndin cənubunda, Türyançayın qərb sahilində yerləşir. Abidə haqqında D.B.Şərifov, S.M.Qazıyev, F.V.Qədirov və Q.C.Cəbiyev məlumat vermişlər. Qala strateji cəhətdən əlverişli mövqedə yerləşmişdir. Onun şərq hissəsi Türyançay dərəsi, şimal, qərb və cənub tərəfləri isə təbii xəndəyə bənzəyən dərin çökəkliklə əhatə olunmuşdur. Abidə iki hissədən ibarət olmaqla şimalda Böyük Qalacıq, cənubda isə Kiçik Qalacıq yerləşir (Şəkil 8). Tərkəş qalasında 50 m-lik dik uçurum vardır (2, 9; 6, 38-39). Cənub hissədə uzunluğu 130, eni 55 m-dir. Şimal hissədə üçbucaq formalıdır. Uzunluğu 225, eni 115 m-dir. Qalanın şimal qurtaracağı eni 60 m olan yarımdairəvi forma ilə tamamlanır. Tərkəş qalasının bütün tərəfləri, xüsusilə

Türyançay axan şərq hissəsi təbii proseslər nəticəsində uçmuşdur (3, 117-118).

Böyük Qalacıqda (Şəkil 8; 12) arxeoloji tədqiqat işləri nəticəsində 3 mədəni təbəqə aşkar olunmuşdur. Təbəqələrin arasında "lal" təbəqə qatı var. Üst mədəni təbəqənin qalınlığı 2,2 m olmaqla VI – VIII əsrlərə aiddir. Oradan daş divar qalığı, ocaq yerləri və şirsiz qab hissələri əldə olunmuşdur. Saxsı məmulatı əldə hazırlanmışdır. Oradan küp, dopu və sərnic tipli qabların hissələri əldə olunmuşdur (6, 39). Qalınlığı 25 sm olan lal təbəqədən sonra 1,5 qalınlığında ikinci mədəni təbəqə yerləşir. Bundan sonra isə 40 sm-lik daha bir "lal" təbəqə orta qatı alt mədəni təbəqədən ayırır. Alt mədəni təbəqə 0,2 m qalınlığında olmaqla abidədə ilk məskunlaşma dövrünü, yəni II – III əsrləri əhatə edir (7, 58-62).

2013-2014-cü illərdə arxeoloji kəşfiyyat işləri zamanı orada yonulmamış çay daşı və palçıqla hörülmüş daha bir divar bünövrəsi aşkar olunmuşdur (Şəkil 9; Şəkil-plan 10) (8, 54-55).

Arxeoloji tədqiqatlar nəticəsində Kiçik Qalacıqda təqribən 2 m qalınlığı olan mədəni təbəqə aşkar edilmiş və V – VIII əsrlərə aid edilmişdir. F.V.Qədirovun ehtimalına görə, Türyançay dərəsindən Kiçik Qalacığa gizli yeraltı yol olub (7, 61-62) (Şəkil 11-12). Yerli əhali burada mağaralar olduğunu da söyləyir. Lakin Q.C.Cəbiyevin fikrincə, mağara düşərgələri Böyük Qafqazın cənub ətəklərindəki ərazilər üçün xarakterik olmamışdır. Onu da qeyd edək ki, burada gizli yolun olması heç bir şübhə doğurmur. Çünki müdafiə tipli tikililərdə bu cür yollar vasitəsilə əhali ərzaq və sursatla təmin olunurdu. Həqiqətən də 2014-cü ildə Kiçik Qalacıqda elmi tədqiqat işləri apararkən Kiçik Qalacıqın Türyançay tərəfdə yerləşən dərəsindən içəriyə doğru iki böyük otağa gedən yolu izlədik. Daha sonra həmin yolların qərb və cənub istiqamətində davam etdiyinin şahidi olduq (Şəkil 11). Çox güman ki, qərbə gedən gizli yol Sincan çayı yaxınlığına, cənuba gedən gizli yol isə Türyançayın sağ sahili ilə Qarabulağa gedib çıxır.

Tərəfimizdən Tərkəş ərazisində aparılmış arxeoloji müşahidə və tədqiqatlar zamanı xeyli şirsiz saxsı məmulatı əldə olunmuşdur. Keramika məmulatı ilk orta əsrlər üçün xarakterik qablardan ibarətdir (8, 54-55; 9). Dağıstanda Ağdaş çayı sahilində yerləşən ilk orta əsr Andreyaul yaşayış yerinin planı Tərkəş qalasını xatırladır (10, 34).

Tərkəşin keramika məmulatı F.V.Qədirov və Q.C.Cəbiyev tərəfindən 3 qrupa bölünmüşdür: 1) iri qum qarışığı olan nümunələr; 2) xırda qum qarışığı olan nümunələr; 3) narın gildən hazırlanan nümunələr (3, 118-119; 7, 63-64).

Böyük Qalacıqda müəyyən edilmiş qala yerinin uzunluğu 18 m, eni 13 m-dir (Şəkil-plan 10). Tərkəş yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələrinə əsasən söyləmək olur ki, ətrafı qala divarları ilə möhkəmləndirilmiş Böyük Qalacıq III-VIII əsrlərdə, Kiçik Qalacıq isə V-VIII əsrlərdə fasilələrlə Qafqaz albanlarının mühüm strateji məntəqələrindən biri olmuşdur (11, 143-150).

**Qalatap.** Abidə Əlican çayının sol sahilində, Qayabaşı kəndi yaxınlığındakı təpənin üstündə tikilmişdir. Burada dairəvi formalı yastan yerinin diametri təqribən 200 m-ə yaxındır (5, 69). Onun mərkəzi hissəsi kənarlarla müqayisədə təqribən 2-3 m çöküb. Arxeoloji tədqiqatlar nəticəsində abidənin divar qalıqları qeydə alınmışdır. Divar qalıqları təpənin üst hissəsinin dairəsini tam əhatə edir. İnşaat materialı kimi çay daşı və əhəng məhlulundan istifadə olunmuşdur (3, 154). 2011-2013-cü illərdə aparılmış arxeoloji müşahidə və kəşfiyyat axtarışları zamanı Qalatap ərazisindən küpə və tava tipli saxsı qabların fraqmentləri, məişət qabları, üzəri anqoblanmış qalındivarlı bir neçə gil qab və saxsı qablara aid müxtəlif formalı qulplar əldə olunmuşdur. Məişət qablarının üzəri cızma üsulu ilə işlənmiş həndəsi motivlərdən ibarətdir. Arxeoloji materiallar abidənin VII – VIII əsrlərə aid olduğunu söyləməyə əsas verir.

**Bum Govurqalası və Axıtəpə.** Türyançayın sol sahilində Bum kəndinin şimalında, Bum keçidindən 5 km cənubdakı Axıtəpənin ətəyində yerləşən müdafiə sistemi Govurqala-

dan və Axıtəpə müşahidə məntəqəsindən ibarətdir.

Düzbucaqlı formada inşa edilmiş qala divarlarının uzunluğu şimalda və cənubda 103 m, qərbdə və şərqdə isə 120 m-dir. Qala divarlarının qorunmuş hissəsinin hündürlüyü cənubda 2 m-dən çox, digər tərəflərdə 2 m-ə qədərdir.

Dördü cənubda olmaqla qalanın ümumilikdə 13 bürcü vardır. Digər tərəflərin hər birində 3 bürc yerləşir. Düzbucaqlı formada inşa edilmiş bürclərdən birinin tərəflərinin eni 10 m, divarlarının qalınlığı 3,8 m, qorunmuş hissəsinin hündürlüyü 3,5 m-dir. Bürcün içərisində 2,4 x 2,4 m ölçüyə malik kvadrat formalı otaq vardır (3, 146; 4, 148; 5). Qala divarlarındakı mazğalların ölçüsü 40 x 40 sm-dir. Düzbucaqlı formaya malik mazğallar arasındakı məsafə 2 m-dir (Şəkil-plan 1-a).

Darvaza yeri qalanın cənub tərəfinin ortasında, bir-birindən 10 m məsafədə qərar tutmuş iki bürcün arasında olmuşdur. Qalada inşaat materialı kimi əhəng məhlulu və çaydaşından istifadə edilmişdir.

Qaladan təqribən 1 km şimal-şərqdə, Kümə dağının döşündə yerləşən quyularda aparılmış arxeoloji tədqiqatlar zamanı burada çoxlu miqdarda əhəng daşlarının olması müşahidə olunmuşdur ki, bu da həmin quyulardan əhəng bişirmək üçün istifadə edildiyini təsdiq edir. Quyuların qalaya çox yaxın yerləşməsi onun tikintisində istifadə olunmuş əhəngin məhz həmin quyularda bişirildiyini təsdiq edir (3, 147; 4, 148-149).

Govurqalanın müşahidə məntəqəsi olmuş **Axıtəpə** isə ondan təxminən 500 m şimal-şərqdə yerləşir. Axıtəpənin mərkəz hissəsindəki 10 x 10 m ölçülərə malik düzbucaq formalı tikili qalığı vardır. Təpənin qarşısında eni 10 m, dərinliyi 5 m olan müdafiə xəndəyi vardır. Axıtəpənin strateji mövqeyi buradan Bum keçidini və Govurqalanı yaxşı müşahidə etməyə imkan verir (4, 149).

Arxeoloji tədqiqatlar nəticəsində Bum Govurqalasının V – VI əsrlərə aid olduğu müəyyən edilmişdir.

Bum Govurqalasından 12 km şimalda yerləşən **"Qala-dam"** adlı tikinti xarabalığında 25 m ölçüdə çökəklik kvadrat formalıdır. Buradan xeyli çay daşı və kvadrat formalı bişmiş kərpic hissələri əldə olunmuşdur. Bişmiş kərpiclərin ölçüləri 22x22x5; 22,5x22,5x6 və 22x23x6 sm-dir. "Qala-dam" tikintisi Şah dağı keçidinin qarşısında müdafiə - müşahidə məqsədilə inşa edilmişdir (2, 12-13).

**Qasım xan** qalasında cənub hissədə 5x5 m ölçüdə arxeoloji qazıntı işləri nəticəsində 80 sm-lik mədəni təbəqə üzə çıxarılmışdır. Oradan xeyli miqdarda şirsiz və şirli qab hissələri, dəmir ox ucu aşkar olunmuşdur (2, 13-14). Keramika məmulatı əsasən sərnic, küpə və xeyrə tipli qablara aiddir. Mədəni təbəqənin alt hissəsindən əldə olunmuş dəmir ox ucu ikiqanadlıdır. Ox ucluğunun ağaca taxılan hissəsinin ucu şiş olmaqla yuxarı hissədə halqavari qabarıq kəmərlə tamamlanır. Uzunluğu 25 sm-dir (2, 14). Tədqiqatlar bu müdafiə tikilisinin də müşahidə məqsədilə inşa edildiyini söyləməyə əsas verir.

**Küngüt.** Əlicançayın sağ sahilində Şəki rayonunun Baş Küngüt kəndindən cənub-şərqdə, Kilsədağın üstündə yerləşən qala düzbucaq formalı olub, uzunluğu 120 metr, eni 42 metrdir (Şəkil-plan 2).

Arxeoloji tədqiqatlar nəticəsində burada 2 mədəni təbəqə müəyyən edilmişdir. Mədəni təbəqənin qalınlığı 15 sm olan üst qatı IX – X əsrlərə, qalınlığı 45 sm olan alt qatı VII – VIII əsrlərə aid edilmişdir (Şəkil 14; 15; 16) (4, 141).

Divar və bürclər qalanın cənub və qərb tərəflərində nisbətən yaxşı vəziyyətdədir. Divarların qalınlığı 2,65 m, qorunmuş hissəsinin hündürlüyü 2,5 m-dir. Divarlar bir-birinə əhəng məhlulu ilə bərkidilmiş çay daşlarından hörülmüşdür. Kvadrat formalı bürclərin ölçüsü 8 x 8 m-dir. Qalanın əsas darvaza yeri cənubda, ikinci darvaza yeri isə şimal-qərbdədir. Qala mazğalları 40 x 40 sm ölçülərində kvadrat formada tikilmişdir. Qalanın əsas darvazasından qərbdə yerləşmiş bürcün divarlarının eni 2,65 m olub, içərisi kvadrat formalı otaqdan ibarətdir. Otağın eni və uzunluğu 2,7 m-dir. Bürcün divarında düzbucaqlı giriş yeri vardır (4, 142) (Şəkil 3).

Qalanın üst mədəni təbəqəsindən X-XI əsrlərə aid şirli cam hissələri əldə olunmuşdur. Alt təbəqədən isə şirli qaba rast gəlinməmişdir. Şirsiz qab hissələri, əsasən, küp, xeyrə, dopu, qazan, vaza və süddan biçimli qablara məxsusdur.

Küngüt qalasında XI əsrdə Şirvanşahlar bu əraziləri tabe etdikdən sonra həyat kəsilmişdir. Fikrimizcə, Əlicançay sahilində yerləşən müdafiə tipli qalalarda eyni proseslər izlənilmişdir.

**Xaçmaz Govurqalası.** Xaçmaz toponimi müxtəlif mənalarda işlənir. Xaç tərkibli toponimlər Azərbaycanda geniş yayılmışdır. Xaçmaz Alban tayfa ittifaqına aid, qədim türk tayfalarından birinin adıdır. Bəzi tədqiqatçılar isə bu sözü od, atəş, günəş anlamında yozurlar (12).

IV-VII əsrlərdə Azərbaycanda xristianlıq geniş yayılsa da, xaçın tarixi bundan daha əvvəlki dövrə gedib çıxır. Atəşpərəstlər Günəşə səcdə edərkən yerdən çıxan qazın, odun önündə əlləri köksündə durarkən xaç şəkli alırdılar. Xaçmaz sözündəki "maz" hissəciyi – "maq" sözünün dəyişilmiş formasıdır. "Maq" tayfa, qəbilə adı olduğundan Xaçmaz və "xaçmataqlar" od nişanlı oğuzlar kimi izah edilir. Eyni zamanda bu toponimi "xaçı inkar edənlər" kimi də izah edirlər (12).

Xeçmataklar tayfasının adı Oğuz rayonundakı Xaçmaz kəndi və qalasının, habelə Xəzər dənizi sahilindəki Xaçmaz şəhərinin adında qalmışdır (13, 23). Xaçmataki, Xozmas toponimi, ehtimal ki, Oğuz rayonunda, onun yaxınlığındakı Qaladağın zirvəsində Govurqala adlandırılan əlçatmaz Xaçmaz qalasının yerləşdiyi indiki Xaçmaz kəndi ilə lokallaşır. Govurqala adı onun İslamdan əvvəl tikildiyini göstərir ki, bunu mənbələr və aşkar olunmuş arxeoloji materiallar, o cümlədən, cilalanmamış keramika qalıqları təsdiq edir (13, 51).

Govurqala Xaçmaz kəndindən şimalda, Filfilli dağının cənubunda, Qaladağın zirvəsində, Pambıqlıçayın sağ sahilində yerləşir (Şəkil 7).

Qalanın müdafiəsini gücləndirmək üçün ətrafda ikisi qarşı-qarşıya olmaqla 3 xəndək qazılmışdır. Paralel qazılmış xəndəklərdən birinin uzunluğu 15 m, eni 8 m, dərinliyi 10 m-dir. Bu xəndəyin qarşısında yerləşmiş ikinci müdafiə xəndəyinin uzunluğu 100 m, eni 30 m, dərinliyi 20 m olub, aralarında eni 7 m, uzunluğu 15 m-ə çatan düz səthli sahə vardır. Üçüncü xəndəyin uzunluğu isə 50 m, eni 25 m, dərinliyi 15 m-dir (3, 142-143; 4, 145-146; 14).

Qalaya giriş şimaldan, iki bürc arasındakı darvaza yerindəndir. Onun eni 1,5 m, qorunmuş hissəsinin hündürlüyü 3 m-dir (Şəkil 6).

Xaçmaz Govurqalasında darvaza yerində aparılmış arxeoloji qazıntı işləri qala darvazasının kiçik olduğunu söyləməyə əsas verir. Çünki buradan qalaya yalnız piyada və atlı süvarinin daxil olması mümkün ola bilərdi. Yuxarı hissəsi dağılmışdır. Darvaza yerində qala divarlarının eni 1,5, hündürlüyü isə salamat qalmış hissədə 3 m-dir. Darvaza yerinin sağ və sol tərəflərində düz divarlar vardır. Sağ tərəfdəki divarın uzunluğu 2,56, sol tərəfdəki divarın uzunluğu isə 2,64 m-dir. Darvaza yerinin eni 1,6 m-dir. F.V.Qədirov qeyd edir ki, təkərli nəqliyyatın çıxa bilmədiyi dağ qalaları üçün bu cür kiçik darvazalar xarakterikdir (2, 5).

Qalada V evin sahəsi 4x1,8 m olmaqla düzbucaqlıdır. Orada divar qalıqlarının hündürlüyü 1,5 m-dir. İçəri üzdən divarlar 3 sm qalınlığında xırda qum qarışdırılmış kirəc məhlulu ilə suvanmışdır. Evin döşəməsi daş piltələrlə döşənmişdir. Üzərindən isə 4 sm qalınlığında kirəc məhlulu ilə suvaq vurulmuşdur. Evin şimal divarında 65x40 sm ölçüdə pəncərə yeri vardır (2, 6).

Qala 7 bürcdən ibarət olmaqla, xüsusi su kəməri vasitəsilə içməli su ilə təchiz edilirdi. Bunu arxeoloji tədqiqat işləri zamanı əldə olunmuş su tüngləri sübut edir. Divarlarının perimetri 192,71 m, divar və bürclərinin qorunmuş hissəsinin hündürlüyü 3-6 m, divarın qalınlığı bəzi yerlərdə 1,5 m-dir. Qala divarlarındakı yeddi bürcün arasında həm düzbucaqlı, həm də yarımdairəvi formaya malik olanlar vardır. İçərisi boş olan bürclərin ölçüləri fərqlidir. Məsələn, ən iri 6 №li bürcün perimetri 33 m, hündürlüyü 6 m-dir. 3 №li bürcün diametri 24,5 m, hündürlüyü 5,7 m-dir. Qalanın içərisində

ikinci divar xətti qeydə alınmışdır. Onun qorunmuş hissəsinin hündürlüyü 2,5 m, uzunluğu 10 m, eni 1,3 m-dir. İki divarın arası boşluqdur. Tədqiqatlar qalanın ikimərtəbəli olduğunu söyləməyə əsas verir.

Xaçmaz Govurqalasında 1 – 4 cərgədə qeydə alınmış dairəvi formalı mazğalların ölçüləri 20-36 x 18-26 sm və diametri 23 sm-dir. Aralarındakı məsafə 0,5-13 m-dir. Dairəvi mazğalların bir qismi içəridən suvanmışdır (3, 143-144; 4, 146-147).

Qala daxilində 12 otaq olduğu ehtimal edilir. Otaqlar düzbucaqlı formadadır. Onlardan biri yarımdairəvi bürcün içindədir. Həmin otağın uzunluğu 15 m, eni 10 m-dir. Digər tədqiq edilmiş düzbucaqlı otaq qala divarının qarşısında yerləşir. Bu otaq 4 x 1,8 m ölçülərə malik olub, divarlarının qorunmuş hissəsinin hündürlüyü 1,6 m-dir. Otağın şimal divarında hündürlüyü 65 sm, eni 37 sm olan pəncərə yeri qeydə alınmışdır. Pəncərə otağa bitişik digər tikiliyə baxır. Çox güman ki, bu otaqdan ərzaq anbarı kimi istifadə olunmuşdur (9).

Govurqalada inşaat materialı kimi qaya və çay daşlarından, kirəc məhlulundan, puç daşdan yonulmuş, 22-26 x 34-35 x 5-10 sm ölçülərə malik lövhələrdən istifadə edilmişdir. Bunlardan əlavə darvaza yerində başqa 23 x 23 x 5 sm ölçülərə malik bişmiş kərpric parçalarına da təsadüf edilmişdir (3, 144-145; 4, 147-148). Həmçinin inşaat materialları içərisində darvaza yerində və V evin döşəməsində istifadə olunmuş dördkünc formalı daş diqqəti cəlb edir. Həmin daşların ölçüsü 36x24x8; 34x18x8 və 26x34x6 sm olmaqla irihəcmli bişmiş kərpicləri xatırladır (2, 8).

Xaçmaz Govurqalası haqqında A.A.Bakıxanov, S.M.Qaziyev. F.V.Qədirov və Q.C.Cəbiyev geniş məlumat vermişlər. Qalanın yerləşdiyi dağ zirvəsi Xaçmaz keçidində (Alban keçidi) elə bir coğrafi mövqedədir ki, buradan cənub, cənub-şərq və cənub-qərb tərəfdəki əraziləri, Qəbələ, Şəki, Ağdaş torpaqlarını müşahidə etmək mümkündür. Bu müşahidə imkanlarına görə qalanın düşmən ordusundan müdafiə olunmaqla yanaşı atəşpərəstlik təlimlərinin icrası məqsədi ilə də tikildiyini söyləyə bilərik. A.Yanovskinin fikrincə, qalanın digər adı hesab olunan Qızlar qalası "Quz" ("Oğuz" – T.Ə.) tayfaları ilə əlaqədardır (3, 145-146; 4, 148).

Aparılmış tədqiqatlar abidənin VII – XIII əsrlərə aid olduğunu söyləməyə əsas verir.

Xaçmaz keçidi qarşısında yerləşən **Surxay xan** qalasında arxeoloji kəşfiyyat qazıntısı nəticəsində 30 sm qalınlığında mədəni təbəqə müəyyən edilsə də heç bir saxsı məmulatı əldə edilməmişdir. Qalanın ikinci otağının içərisində kirəc məhlulu ilə suvanmış daş döşəmənin üzərində 15 sm qalınlığında yanğın təbəqəsi müəyyən edilmişdir (2, 9).

**Kəldək Govurqalası.** Əlicançayın sağ sahilində Şəki rayonunun Kəldək kəndindən şimalda, Qaladağın zirvəsində yerləşən qala relyefə uyğun inşa edilmişdir. 2013-cü ildə ərazidə arxeoloji kəşfiyyat və çöl-tədqiqat işləri aparılmışdır.

Kəldək Govurqalasının divarlarının aşağı hissəsinin eni 1 m, yuxarı hissəsinin 0,8 m, hündürlüyü isə 15 m-ə qədərdir. Qala divarlarının şimal və cənubdakı əsas hissələrini hündürlüyü 15 m, uzunluğu 20 m-ə qədər olan hamar səthli dik qayalar əvəz edir (Şəkil-plan 4).

Burada 6 bürc qeydə alınmışdır. Bunlardan 3-ü düzbucaqlı, 3-ü isə yarımdairəvidir. Kvadrat bürclərin tərəfləri 5,5 m, yarımdairəvi bürclərin diametri 3 m-dir. Bürclərin qorunub saxlanılmış hissəsinin hündürlüyü 4,6-9 m olub, hər bürcün eni 1 m, hündürlüyü 1,5 m-ə çatan giriş yolu vardır (4, 142; 5, 51).

İçərisi boş olan digər 4 bürcdən müdafiəçilərin sığınacaq kimi istifadə etdiyini böyük ehtimalla söyləmək olar. Kəldək Govurqalasının müdafiə sistemi mükəmməl şəkildə qurulmuşdur. Onun inşaat üslubu qalanın müdafiəsini xeyli möhkəmləndirirdi. Qalanın əsas darvaza yeri şərqdə, iki düzbucaqlı bürcün arasındadır. Darvazadan içəri hissədə isə oval formalı divarla əhatə olunmuş sahədən həm sağ tərəfdəki bürcün, həm də qalanın içərisinə daxil olmaq üçün əlavə girişlər mövcuddur. Birinci darvazadan keçmiş düşmən qarşıdakı ikinci darvazaya tərəf atılarkən sağdakı bürcün müdafiəçiləri ona arxadan və yandan zərbə endirmək imkanı

qazanırdılar. Qalanın nisbətən kiçik olan ikinci darvaza yerinin sağında və solundakı yarımdairəvi bürclərin içərisi boş olmayıb, daşla hörülmüşdür. Lakin qalanın şimal-şərqindəki digər yarımdairəvi bürcün içərisi boşdur (Şəkil 5).

Qalanın içərisində kvadrat və ya düzbucaqlı formada, hündürlüyü 2-3 metrə çatan divar qalıqlarının aşkar olunması burada yaşayış evlərinin olduğunu söyləməyə əsas verir. Onlar relyefə uyğun olaraq hündür və çökək yerlərdə tikilmişdir (4, 142-143).

Burada istifadə olunmuş inşaat materialı qaya və çay daşlarından, bir qismi kvadrat formalı puç daşdan, əhəng məhlulundan ibarətdir. Qalanın xaricində, birinci darvaza yerinin qarşısında su hovuzu vardır. Hovuzun iç üzündəki kvadrat formalı bişmiş kərpiclər orta əsrlərdə təmir işləri zamanı tətbiq edilmişdir. Bu hovuzun eni və uzunluğu təqribən 8 m, dərinliyi 4,5 m, divarlarının eni 1 m-dir.

Kəldək Govurqalasının mədəni təbəqəsinin üst qatında şirli, alt qatında isə şirsiz qab hissələri əldə olunmuşdur. Buradan XI – XIII əsrlərə aid üzəri qrafik cızma naxışlı xeyrə tipli qabların hissələri əldə olunmuşdur. İki mədəni təbəqə arasında 3-7 sm qalınlığında aşkar edilmiş bərkidilmiş kirəc məhlulu təbəqəsinin varlığı qalada aparılmış təmir-bərpa işləri ilə əlaqələndirilməlidir. Bu, ehtimal ki, IX əsrdə yeni feodal dövlətlərin meydana gəldiyi dövrə təsadüf edir.

Fikrimizcə, Kəldək Govurqalası VI – XIII əsrlərdə Əlicançay sahilində mühüm strateji məntəqələrdən biri olmuşdur.

Qeyd edək ki, ilk orta əsr Govurqala tipli abidələr Tacikistanın cənubunda, Özbəkistanda Səmərqəndin cənubunda, Türkmənistanın cənub-şərqində Mərvdə də mövcud olmuşdur.

**Həzrət Əli (ra) qalası.** Şəki rayonu ərazisindəki qala Damarçayın yuxarı axarında yerləşir və VIII – XIV əsrin müdafiə istehkamları sırasına daxildir (Şəkil 13). 2014-cü ildə arxeoloji kəşfiyyat və çöl-tədqiqat işləri zamanı qala yaxınlığından saxsı məmulatının fraqmentləri əldə olunmuşdur.

**Kərimli "Qala yeri".** Kərimlidə Böyükşordan 250 m şimalda **"Qala yeri"** qeydə alınmışdır. Qalanın 6 bürcü vardır. Divarları möhrədəndir. Oradan şirli qablar əldə olunmuşdur (15, 34). Arxeoloji tədqiqatlar abidənin V – VIII əsrlərə məxsus olduğunu söyləməyə əsas verir.

Kərimlidə Balatüryan çayının sağ sahilindəki yaşayış yerlərinin qalıqları sübut edir ki, burada evlər yarımqazma şəklində olmuşdur (16, 39).

**Surxab qalası.** Bu qala haqqında ayrı - ayrı mənbələrdə müxtəlif məlumatlar verildiyi üçün onun lokallaşdırılmasında ziddiyyətli fikirlər meydana çıxmışdır. Lakin qeyd edək ki, Surxab qalası ilə Surxay qalasını da qarışdırmaq olmaz. S.M.Qazıyev "Surxay qalası" deyilən yeri, yəni Ağdaş rayonunun Kükəl kəndindən şimalda, Türyançay qəsəbəsi yaxınlığında Srxab şəhərini lokalizə edir (16, 46). Surxab qalası iki sahədə: Şiştəpədə və Köndələndağda yerləşir. Abidə yerləşən sahənin uzunluğu 200, eni isə 25-30 m-dir. Dağın hər tərəfi dik uçurumdur. Dağın üstündə ancaq bir yerdə uzunluğu 5, hündürlüyü 2 m olan kirəc məhlulu ilə daşdan hörülmüş divar qalığı vardır. Surxab qalasında dağın içərisində qazılaraq tikilmiş yeraltı istehkamlar maraq doğurur. Şiştəpə Bozdağ silsiləsinin ən yüksək zirvəsidir. Şiştəpə ilə qalanın yeraltı istehkamları olan əsas hissəsi arasında dərə yerləşir (2, 18-19).

Aradakı məsafə 0,5 km-dir. Şiştəpə oval formalıdır. Onun uzunluğu 40 m, eni isə 20 m-dir. Şiştəpədə divar möhrədən ibarətdir. Oradan arxeoloji kəşfiyyat qazıntısı nəticəsində metal ərintilərinin çıxarları və kömür qalıqları üzə çıxarılmışdır. 0,6 m dərinlikdə oval formalı kürə aşkar edilmişdir. Həmin hissə metaləritmə ocağı olmuşdur. Metalın tərkibi belədir: Qalay – 10-12%; gümüş – 0,04%, qurğuşun – 0,08% və s. təşkil edir (2, 19-20). Arxeoloji materiallara əsasən qalada VI – X əsrlərdə intensiv həyatın olduğunu söyləyə bilərik.

**Eşik qalası (Şinaz qalası).** Əlicançayın sağ sahilində Şəki rayonunun Baş Laysk kəndi ilə Şin kəndini ayıran dağ tirinin orta hissəsində yerləşir. Ərazisi təxminən 0,5 hektar sahəni tutur. Qala Dağıstana gedən dağ keçidi qoruyurdu. Qalanın qapısı Şin

dərəsinə açılırdı. Qapının eni 1,5 m, qarşısındakı kvadrat biçimli qüllənin ölçüsü isə 10x10 m-dir. Salamat qalmış divar qalıqlarının hündürlüyü 2-3 m-ə çatır. İnşaat materialı kimi çaydaşı və səliqə ilə yonulmuş qaya daşlarından, kirəcdən istifadə olunmuşdur (17, 91-93). Tədqiqatlar nəticəsində qalada VIII-XVII əsrlərə aid mədəni təbəqənin varlığı müəyyən edilmişdir.

**Aydınbulaq qülləsi.** Əlicançayın sağ sahilində yerləşən abidə yerli əhali tərəfindən Qız qalası da adlandırılır. Hündürlüyü 10,5 m-dir. Eni şimal-qərb və cənub-şərq tərəfdə 9,3 m, şimal-şərq və cənub-qərb tərəfdə 6,8 m-dir. Şimal-şərq tərəfdən girişinin eni 3 m, qüllələrin eni 1,9 m-dir. Qalada 4 bürc yeri olsa da cənub hissədəki qüllə tamamilə uçmuşdur (Şəkil 18-21). Bürclər qalanın küncündə yarımdairəvi formada inşa edilmişdir. İçərisində mərkəzdə qazılmış quyunun dərinliyi 2,5 m-dir. Qüllənin həm divarları, həm də bürcləri yuxarıya doğru daralır. Qüllə üç qat olmuş, birinci mərtəbədə qapı yeri, iki və üçüncü qatlarda pəncərə açırımı yerləşirdi. Birinci mərtəbənin hündürlüyü 4 m, ikinci mərtəbə 2,8 m, üçüncü mərtəbə isə 2,6 m-dir. Qüllənin aşağı hissəsində bürclərinin diametri 1,4 m, yuxarı hissəsində isə 1,2 m-dir. Qapı yerinin eni 1 m, hündürlüyü 0,8 m-dir (Şəkil 18). İkinci mərtəbədə mühafizə olunmuş pəncərə yeri isə 1 m hündürlükdə, 0,4 m enindədir (8, 54; 17, 118-120; 18, 31).

K.M.Məmmədzadə Aydınbulaq qülləsini Abşeronun XIII – XIV əsr qalaları, həmçinin, Sultan Səncərin Mərv şəhərində yerləşən türbəsi (XII əsr) və Buxarada yerləşən Uluqbəy mədrəsəsinin (XV əsr) memarlıq üslubu ilə müqayisə edir (5, 102-105; 19, 31). Qüllədə aparılmış arxeoloji tədqiqat işləri nəticəsində onun XII-XIV əsrlərə aid olduğunu söyləmək mümkündür.

**Muxas qülləsi.** Bu abidə Muxas – Daşağıl yolunun sağında asfalt yolun kənarındakı taladan keçdikdən sonra, meşənin içərisində yerləşir. "Muxas" toponimi iki komponentdən ibarətdir: "mux" və "as". Hər ikisi Azərbaycan xalqının entogenezində iştirak edən ulu tayfaların adlarıdır. "Mux" – "maq" sözləri eyni kökdən törəmişdir, odun müxtəlif məzmunlarını ifadə edir. Maqların bəşər sivilizasiyasının bağlanğıcında durduğu elm aləminə məlumdur. Oğuz rayonunun Muxas kəndində yaşayanlar da məhz həmin maqların bu günkü nəsilləridir. "As" tayfasının adı Kül Tiqin və Tonyukuk abidələrində çəkilir. Muxas "od nişanlı, maqlar - azlar" mənasında olduğu ehtimal olunur (12).

Ənuşirəvan ibn əl-Ləşkəri Əli hərbçilərlə birlikdə kafirlərə (Şəki Alban çarlığını bərpa edən xristian albanlara qarşı – T.Ə.) qarşı Tatiyan, Muçkank və əl-Beyda qalalarını tikdirməyi qərara alır (20, 18). V.V.Minorski burada adı keçən toponimlərdən əl-Beyda qalasını Ağdaşda, Muxkank qalasını isə Oğuz rayonunun Muxas qalasında lokalizə edir (20, 28). Maraqlıdır ki, Kramer də İbn Havqəldə təsvir olunan əl-Beyda qalasını Şəki ilə Layzan arasında (Ağdaşda – T.Ə.) lokalizə edir (20, 333). Lakin V.V.Minorski əl-Beyda adlı digər bir şəhəri Şimali Qafqazda lokalizə edir. O, Xəzər türkləri haqqında yazır "Onların şəhərləri arasında əl-Beyda – "Hab-balıq" da var ki, böyük və gözəldir, Xəzər gölünə tökülən çayın sahilində yerləşir, oranın sakinlərinin qəbirləri müsəlmanların qəbirləri kimidir" (21, 144). O, əl-Beyda toponimini xəzərlərdə paytaxtın qərb hissəsinə verilən ad kimi qeyd edir və mənasının "Ağ bir yer" olduğunu yazır (21, 145).

Muxas qülləsində ilk dəfə arxeoloji kəşfiyyat qazıntısı 1965-ci ildə aparılmışdır. İki kvadratda 2x3 m ölçüdə hissə qazılaraq 0,5 m dərinlikdə mədəni təbəqə üzə çıxarılmışdır. Muxas qülləsinin aşağı hissəsində giriş yeri yoxdur. Arxeoloji qazıntı işi nəticəsində şirsiz və şirli saxsı məmuları hissələri əldə olunmuşdur (2, 2).

Muxas qülləsinin cənub-şərq tərəfdən hündürlüyü 10,6 m, şimal-qərb tərəfdə isə 9 m-dir (Şəkil 22-23). Qüllə divarının cənub hissəsində oyuq yeri 120, cənub-şərq tərəfdə isə 70 sm-dir. Burada oyuğun hündürlüyü 3 m-dir. İkinci qatda mazğal və işıqlandırma üçün pəncərə rolu oynamış, hündürlüyü 1,5 m, eni 0,6 m olan açırım yerləşir. Qüllənin şimal-qərb tərəfdə eni 5,8 m, cənub-şərq tərəfdə isə 5,5 m-dir. Perimetri 24,7 m-dir.

Muxas qülləsi üçmərtəbəli olub. Onun birinci və ikinci mərtəbələri yaxşı qalmış, üçüncü mərtəbəsinin yuxarı hissəsi uçub dağılıb (8, 53-54).

Muxas qülləsinin inşası zamanı çay daşından və kirəc məhlulundan istifadə olunmuşdur. Qüllənin bu formada tikilməsi yerləşdiyi sahənin quruluşuna uyğundur. Maraqlıdır ki, M.A.Ömərqadiyeva Dağıstanda Kubaçi rayonu ərazisində yerləşən həmdövr müdafiə tipli memarlıq abidələrinin Muxas qülləsi ilə eyni tipli olduğunu göstərir (22, 322-333). Bu isə təbii idi. Yuxarıda qeyd etdiyimiz kimi ərazi bir müddət Filanşahlığın cənub torpaqları olduğundan Kubaçidə yerləşən abidələrlə üslubi oxşarlıq təkzibedilməzdir. Təsadüfi deyil ki, Filanşahlığın şimal-şərq sərhəddi hesab olunan Zirehgeran da məhz müasir Kubaçi ərazisidir.

Aparılmış elmi tədqiqat işləri nəticəsində Muxas qülləsini IX – XIV əsrlərə aid etmək olar. Lakin öz tikilmə üslubuna görə F.Qədirov Muxas qülləsinin ilk öncə atəşpərəstlik təlimi və ayinlərini icra etmək məqsədilə daha erkən tikildiyini söyləyir (5, 98-102; 19, 31). Qeyd edək ki, eyni tip müdafiə istehkamı Zurnabad qalasının memarlıq xüusiyyətləri ilə seçilir (23, 155).

**Qız qalası** Əlicançayın sağ sahilindəki yüksəklikdə yerləşir. Həmin sahili su yuyaraq təxminən 50 m hündürlükdə dik uçurum yaratmışdır. Yüksəkliyin cənub ətəyindən keçən köhnə torpaq yol çayı keçdikdən sonra Yevlax – Şəki yoluna çıxır.

Yüksəkliyin üstü düzənlikdir. Onun diametri 200 m-dir. Bu sahənin mərkəz hissəsində diametri 20 m olan çökəklik vardır. Çökəkliyin ətrafı 2 m hündürlükdə torpaq hasara bənzəyir. Çökəklikdə tikinti xarabalığı vardır. Bu tikinti xarabalığı kirəc məhlulu ilə çay daşından hörülmüş iki hissə divardan ibarətdir. Ətrafda isə kvadrat formalı bişmiş kərpic qırıqları vardır. Buradan əldə olunmuş yerüstü keramika məmulatı şirsiz saxsı hissələrindən ibarətdir. Narın gildən əldə hazırlanmış ağzı novça formalı gil qab sarımtıl-qırmızı rəngdə bişirilmişdir (2, 12). Eyni tip qala Göy-göl rayonunda tədqiq olunmuşdur (23, 154-155). Əldə olunmuş materiallara əsasən qalada həyatın VI – XIII əsrlərdə olduğunu söyləmək mümkündür.

**Qızlar qalası.** Türyançayın sol sahilində Qəbələ rayonunun Zalam kəndindən təxminən 3 km şərq tərəfdə yerləşir. Qala güclü dağıntıya məruz qalmışdır. 1972-ci ildə F.V.Qədirov tərəfindən orada aparılan arxeoloji qazıntılar nəticəsində qala divarları, bürcləri və darvaza yeri aşkarlanmışdır. Uzunluğu 16,5 m, eni 15,7 m olan qalanın darvaza yeri cənub-qərb tərəfində yerləşir və eni 1,8 m-dir (Şəkil-plan 1-b). Qala divarlarının qalıqlarının hündürlüyü bəzi yerlərdə 1,5 metrə qədərdir. Bürclərin diametri 3,5 m, kontrforsların diametri isə 1,5 m-dir. Arxeoloji qazıntılar nəticəsində Qızlar qalasında 20 sm qalınlığında mədəni təbəqə aşkarlanmış, daş sütun altlığı fraqmenti və xeyli saxsı qab qırıqları tapılmışdır (3, 152-154; 5, 88-91). Qızlar qalasının tikilmə tarixi ilə bağlı tədqiqatçılar arasında müəyyən fikir ayrılığı var. Məsələn, F.V.Qədirov VIII əsrin sonu – IX əsrin əvvəllərində tikildiyini yazır (5, 91; 24, 29-33). Q.C.Cəbiyev isə arxeoloji tədqiqatlar zamanı qala ərazisindən şirli qab nümunələrinin tapılmadığını əsas gətirərək qalanın ən geci VI əsrin sonu – VII əsrin əvvəllərində inşa olunduğunu daha inandırıcı hesab edir (3, 213-214). Fikrimizcə, bu abidə də Əlicançay sahilindəki Qız qalası kimi VI əsrdən etibarən istifadə olunmuşdur.

**Maluq qalası** Aşağı Daşağıl kəndindən şimal-qərqdə, Aydınbulaq – Maluq yolunun solunda hündür təpəlikdə yerləşir. Qala dördkünc biçimli olsa da, küncləri dairəvi bürclərlə, divarları isə yarımdairəvi kontrforslarla möhkəmləndirilmişdir. Divar qalığının hündürlüyü 2 - 3 m-dir. Divar qalığının eni isə 75 sm-dir. İnşaat materialı kimi çay daşından, xırda çınqıl və kirəc məhlulundan istifadə edilmişdir (Şəkil 17). Bişmiş kərpicdən hörülmüş divar qalığı onun XIII-XIV əsrlərdə bərpa olunduğunu göstərir. Qalanı dərinliyi 2 m, eni bəzi yerlərdə 12-15 m təşkil edən müdafiə xəndəyi əhatə edir (8, 54; 17, 121-122).

V.F.Minorskinin “Şirvan və Dərbənd tarixi” əsərində Şəki ilə Şirvan arasında 1071 və 1072-ci illərdə baş vermiş iki toq-

quşma haqqında məlumat verilir: “Həmin ildə (h. 464/ m. 1072-ci il - T.Ə.) Şirvanşah Arran hökmdarı Fəzl ibn Şavur ilə saziş bağladı və onların hər ikisi öz qoşunları ilə Maluq qalasını mühasirə etdilər. İlin əvvəllərində bu qalanı müsəlmanlardan zəbt etmiş Şəki hökmdarı Axsartanın müavininin əlindən xilas etdilər. Onlar h. 464-cü ilin ramazan ayında (m. 1072-ci ilin iyununda) qalanı geri aldılar və təməlinədək dağıtdılar, həmçinin, orada olan bütün kafirləri (IX əsrdə alban knyazlığının Azərbaycanın şimal-qərbində bərpa edilmiş Şəki – Hereti çarlığının xristianları - T.Ə.) qırdılar” (25, 40). 1053-cü ildə Şirvanşahın Maluq qalasını ələ keçirdiyi məlumdur. V.F.Minorski Əlicançay sahilindəki Maluq qalası ilə 1072-ci il hadisələri ilə əlaqədar adı çəkilən Maluq qalasının eyni bir qala olmasını qeyd edir (25, 40). Elmi tədqiqatlar V.F.Minorskinin fikri ilə razılaşmağa əsas verir. Məlumatdan göründüyü kimi, Şəki – Hereti (Herrlər – Albanlar ölkəsi – T.Ə.) hökmdarı Axsartan 1071-ci ilin payızında Maluq qalasını müsəlmanlardan (Şirvanşahlardan - T.Ə.) zəbt edərək orada öz qüvvələrini yerləşdirir (20, 24). 1072-ci ilin yayında isə Şirvan və Arranın birləşmiş qüvvələri yenidən qalanı ələ keçirərək dağıdırlar (25, 84). 1053-cü ildə Şirvanşah Sallar ibn Yəzidin sərhəddə yerləşən Maluq qalasına mühüm əhəmiyyət verdiyi və onu möhkəmləndirdiyi halda, onun oğlu Fəriburz ibn Salların da iştirakı ilə yenidən faktiki ələ keçirilmiş qalanın hansı səbəbdən dağıdıldığı məlum deyil. Görünür, müttəfiqlər strateji əhəmiyyətli Maluq qalasının yenidən I Axsartanın əlinə keçə biləcəyindən ehtiyat etdiklərindən, onu dağıtmağı məqsədəuyğun hesab etmişdilər. Qeyd etmək lazımdır ki, Şirvanşahlarla Şəki çarlığı arasında mübahisəli məsələ məhz ərəb mənbələrində adı çəkilən Filanşahlığın cənub torpaqları idi. IX-XI əsrlərdə Azərbaycanda mövcud olmuş feodal pərakəndələyi sonda bu cür dağıntılara gətirib çıxarırdı (26, 116-117).

Maluq qalasının yaxınlığında sahəsi 6 hektara yaxın olan orta əsr yaşayış yeri qeydə alınmışdır. Çox güman ki, Maluq qalası həmin yaşayış yerinin narınqalası olmuşdur. Aparılmış arxeoloji tədqiqat işləri nəticəsində qalanın IX – XIV əsrlərə aid olduğunu söyləmək mümkündür.

**Gözətçi məntəqələri.** Qəbələ şəhərinin erkən qala divarlarının tikinti materiallarının və tikinti texnikasının müxtəlifliyi daha çox diqqəti cəlb edir. Diqqəti cəlb edən odur ki, şəhərin qala divarlarının inşasında əsasən möhrə, çiy və az miqdarda bişmiş kərpic, çaydaşı və yonulmuş yumşaq daşdan, əhəng məhlulundan istifadə edilmişdir (4, 18; 27). Q.C.Cəbiyev Qəbələni şəhər-qala, Bum, Qalatap, Oğuz qalalarını isə müdafiə tipli istehkamlara aid edir (28, 47).

Qəbələdən təxminən 3 km cənubda olan Dizaxlı kəndi ətrafı tədqiq edilərkən Qaraçayın qərbindəki dərədə qədim binaların qalıqlarına təsadüf edilmişdir. Bina çaydaşı və bişmiş kərpicdən tikilmişdir. S.M.Qazıyevə görə bu hissə Qəbələni cənubdan mühafizə etmək üçün gözətçi məntəqəsi olmuşdur (29, 7). Arxeoloji tədqiqatlar zamanı Balaqənbər düzündə Sarıhacılı kəndinin şərqində 2 yerdə bir-birindən 2 km aralıda yerləşən dördkünc bina qalıqları müəyyənləşdirilmişdir. Xatırladaq ki, bu ərazidən qədim Qəbələ - Ağdaş yolu keçir. 3 x 2,5 m ölçüdə olan bu tikililərin gözətçi məntəqələri olduğu ehtimal edilir. Burada inşaat materialı kimi çaydaşından istifadə olunmuşdur (30, 17-18). “Canbulağı” və “Dəllək otu” adlı yerlərdə arxeoloji kəşfiyyat işləri zamanı şirsiz və şirli saxsı məmuları əldə olunmuşdur. Ərazidə kənd tipli yaşayış yeri olmuşdur. Quşlar kəndi yaxınlığında Savalan keçidindən qərbdə Sarıyoxuş ərazisindəki təpənin üstündə gözətçi məntəqəsi olmuşdur. Bunu əldə olunmuş maddi – mədəniyyət qalıqlarına əsasən söyləmək mümkündür (31, 31-33). Çox güman ki, qeyd etdiyimiz gözətçi məntəqələri Qəbələ şəhərinin cənub müdafiə yerləri olmuşdur.

## ƏDƏBİYYAT

1. Qədirov F.V. Şəki, Vartaşen və Qutqaşen rayonlarına arxeoloji səfərin hesabatı (1968-ci il) // AMEA AEİEAF, № h – 295, 21 s.
2. Qədirov F.V. 1965-ci ildə Vartaşın, Qutqaşın və İsmayıllı rayonlarına arxeoloji kəşfiyyat səfərinin hesabatı // AMEA AEİEAF, № h – 127, 22 s.
3. Cəbiyev Q.C. Girdiman tarixi (IV-IX əsrlər). Bakı, «Şərq-Qərb», 2010, 616 səh.
4. Xəlilov M.C. Albaniyanın yaşayış yerləri (IV – X əsrlər), Bakı, 2010, 284 s.
5. Qədirov F.V. Azərbaycanın şimal müdafiə istehkamları (sabiq Qəbələ mahalının V – XIV əsr abidələri əsasında), Bakı: Elm, 1984, 150 s.
6. Qədirov F.V. 1970-ci ildə Şəki, Vartaşen və Qutqaşen rayonlarına arxeoloji səfərin elmi hesabatı // AMEA AEİEAF, № h – 105, 41 s.
7. Qədirov F.V. Tərkəşdə arxeoloji kəşfıyyat qazıntılarının ilk nəticələri // Azərb.SSR EA Xəbərləri, TFHS, 1974, № 4, s. 57-69
8. Əliyev T.V. Əlican və Türyançay hövzəsinin dağlıq və dağətəyi ərazilərinin IV – XIII əsr arxeoloji abidələri haqqında // AAE, Bakı, 2013, N 2, s. 52-62
9. Əliyev T.V. Zərdab rayonuna ezamiyyətin nəticələri haqqında hesabat, Bakı, 2013, AMEA AEİEAF, № h – 555, 4 s.
10. Магомедов М.Г. Образование Хазарского каганата (по материалам археологических исследований и письменным данным), Москва, Издательство «Наука», 1983, 230 с.
11. Cəbiyev Q.C. Azərbaycan keramikası, Bakı, Elm, 2003, 233 s.
12. http://az.wikipedia.org/wiki/O%C4%9Fuz
13. Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.), Баку: Элм, 1983, 343 с.
14. Гадиров Ф.В. Северные оборонительные сооружения Азербайджана (на основе памятников бывшего Кабалинского магала VI-XIX вв), Автореф. дисс. канд. ист. наук, Баку, 1969, 23 с.
15. Qazıyev S.M. Vardanlı arxeoloji qazıntıları (1958-ci il hesabatı) // AMEA AEİEAF, № h – 197, 38 s.
16. Qazıyev S.M. Qəbələ mahalının qədim tarixindən // Вопросы истории Кавказской Албании, Издательство Академии Наук Азербайджанской ССР, Баку, 1962, s. 38-47
17. Azərbaycan Arxeologiyası (Altı cilddə), VI cild, Bakı, Şərq-Qərb, 2008, 632 s.
18. Ибн ал-Факих Книга о странах (перевод с арабского Н.А.Караулова) СМОМПК, 31, Тифлис, 1902, с. 1-58
19. Мамедзаде К.М. Строительное искусство Азербайджана (с древнейших времен до XIX в.), Баку, «Элм», 1983, 126 с.
20. Minorsky V.V. Studies in Caucasian History, London: Taylor's Foreign Press: 1953, 178 pp.
21. Minorsky V.V. The Khazars and the Turks in the Akam al-Marjan, Bulletin of the School of Oriental Studies, University of London, Cambridge University Press, Vol. 9, N 1, 1937, pp. 141-150
22. Омаркадиева М.А. Албанские черты в культуре и строительном искусстве древнего Кубачи // Труды Международной Конференции Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа, Баку, 2012, с. 322-333
23. Məmmədov A.M. Qədim Gəncə (arxeoloji tədqiqatlar əsasında), Bakı, "Təknur", 2014, 175 s.
24. Qədirov F.V. 1972-ci ildə Qaraultəpə dəstəsinin apardığı arxeoloji tədqiqatların elmi hesabatı // AMEA AEİEAF, № h – 93, 34 s.
25. Minorsky V.V. A history of Sharvan and Darband in the 10th – 11th centuries, London, W.Heffer and & Sons LTD, Cambridge, 1958, 187 pp.
26. Şirinbəy Hacıəli Şimal-Qərbi Azərbaycan: İngiloylar, Bakı, "Təhsil", 2007, 280 s.
27. Qədirov F.V. 1977-ci ildə Qəbələ arxeoloji ekspedisiyasının Səlbirdə apardığı qazıntı işlərinin hesabatı // AMEA AEİEAF, № h – 217, 58 s.

28. Cəbiyev Q.C. Girdmanın ilk orta əsr qalaları // Mingəçevir arxeoloji ekspedisiyası – 60, Mingəçevir, 2006, s. 47-48
29. Qazıyev S.M. Qəbələ arxeoloji ekspedisiyası – 1944, Qəbələ şəhərinin mövqeyi, təbii-coğrafi şəraiti və bu ərazidəki arxeoloji və tarixi abidələr haqqında // 1952-ci ilə qədər Qəbələdə aparılmış arxeoloji tədqiqat və qazıntılar haqqında // AMEA AEİEAF, № h – 53, 33 + 22 s.
30. Qazıyev S.M. Qəbələ arxeoloji ekspedisiyasının hesabatı (1966-cı il) // AMEA AEİEAF, № h – 491, 25 s.
31. Qazıyev S.M., Babayev İ.A. Qəbələ arxeoloji ekspedisiyasının 1967-ci il hesabatı // AMEA AEİEAF, № h – 23, 44 s.

***Талех Васиф оглу Алиев***

## О СРЕДНЕВЕКОВЫХ ОБОРОНИТЕЛЬНЫХ СООРУЖЕНИЯХ (на основе памятников Шеки, Огуз, Кабала)

### *РЕЗЮМЕ*

Статья посвящена средневековым оборонительным бастионам, расположенным на территориях Шекинского, Огузского и Габалинского районов. Крепости Теркеш, Огуз, Мухас, Айдынбулаг, Кюнгют, Сурхаб и Девичья, также крепости Хачмаз, Келдек и Бум из числа памятников Гявуркалинского типа (вместе с Ахытепе) были привлечены к исследованию. После нашествия арабов памятники Гявуркалинского типа, можно сказать, были разрушены и потеряли свою значимость. После принятия Ислама перечисленные нами остальные крепости сыграли большую роль в оборонительном деле территории.

***Taleh Vasif oghlu Aliyev***

## ABOUT THE MEDIEVAL FORTIFICATIONS (On the basis of Sheki, Oghuz and Gabala monuments)

### *SUMMARY*

Article has dedicated to the medieval fortifications which situated in Sheki, Oghuz and Gabala territories. Terkesh, Oghuz, Mukhas, Aydinbulag, Kungut, Surkhab castles, Gyz qalalari (Maiden towers), also, Govurgala fortification types like as Khachmas, Keldek and Bum castles (with Akhitepe) had been drown into research work. After Arabic conquest Govurgala fortification types almost collapsed and lost its importance. After the adoption of Islam other castles which has been enumerated, played a great role to defend of the territory.




**Xəritə 1**




**Şəkil – plan 1.** Bum Govurqalasının (a) və Qızlar qalasının (b) planı (F.V.Qədirov)



**Şəkil – plan 2.** Küngüt qalasının planı (F.V.Qədirov)



**Şəkil 3.** Küngüt qalasının cənub-qərb bürcü



**Şəkil – plan 4.** Kəldək Govurqalasının planı (F.V.Qədirov)




**Şəkil 5.** Kəldək qalasının cənub-qərb bürcü




**Şəkil 6.** Xaçmaz Govurqalasının planı (F.V.Qədirov)



**Şəkil 7.** Xaçmaz Govurqalasının yerləşdiyi dağın Pambıqlıçay sahilindən görünüşü



**Şəkil 8.** Kiçik Qalacığın cənub - şərqdən görünüşü (Oğuz rayonu Tərkəş kəndi)



**Şəkil 9.** Böyük Qalacıqda Qala yeri (Oğuz rayonu Tərkəş kəndi)



**Şəkil – plan 10.** Böyük Qalacıqda Qala yerinin planı (T.V.Əliyev)



**Şəkil 11.** Tərkəşdə Kiçik Qalacığın Türyançay dərəsi hissəsində gizli yola giriş



**Şəkil 12.** Kiçik Qalacığın qərbdən görünüşü (Oğuz rayonu Tərkəş kəndi)



**Şəkil 13.** Hz. Əli Qalası



**Şəkil 14.** Baş Küngüt qalasının divar qalığı



**Şəkil 15.** Baş Küngüt qalasında giriş hissənin şimal divarı



**Şəkil 16.** Baş Küngüt qalasında giriş hissənin cənub divarı



**Şəkil 17.** Maluq qalasının şimal-qərb divarının qalıqları (Əlicançayın sol sahilində)



**Şəkil 18.** Aydınbulaq qülləsinin giriş qapısı tərəfdən görünüşü







**Şəkil 19, 20, 21.** Aydınbulaq qülləsinin bürcləri



**Şəkil 22.** Muxas qülləsi (Oğuz rayonu)



**Şəkil 23.** Muxas qülləsinin qərbdən görünüşü (Oğuz rayonu)